İPƏK YOLU, No.3, 2024, səh.118-124
https://doi.org/10.30546/SI.2024.2.3.328

# RƏSUL RZA ƏDƏBİ MƏKTƏBİNDƏ İNSAN VƏ TƏBİƏT KONTEKSTİ

**Dəyanət Cümənov**

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
e-mail: dayanat.cumanov@sdu.edu.az

**Xülasə.** Məqalədə fəlsəfi-intellektual təmayüllü Rəsul Rza ədəbi məktəbinin təbiət mövzusunda olan insanmərkəzli poeziya axtarışları öz əksini tapmışdır. Araşdırma göstərir ki, bu mövzuda olan poetik mətnlərdə insan və onun taleyi məsələsi önə çəkilir, bütün diqqət insanı narahat edən suallara yönəldilir.

**Açar sözlər:** Rəsul Rza ədəbi məktəbi, təbiət mövzusu, insan-təbiət konteksti, insanmərkəzlilik, insanın bədii-fəlsəfi dərki.

**HUMAN AND NATURE CONTEXT IN RASUL RZA LITERARY SCHOOL**

**Dayanat Jumanov**
*Sumgait State University, Sumgait, Azerbaijan*

**Abstract.** The article considers the search for human-centered poetry on the nature of the Rasul Reza literary school, which has a philosophical-intellectual orientation. The research shows that in the poetic texts on this topic, the issue of man and his destiny is highlighted, all attention is directed to the questions that bother people.
**Keywords:** Rasul Rza literary school, theme of nature, human-nature context, anthropocentrism, artistic-philosophical understanding of a man.

**КОНТЕКСТ ЧЕЛОВЕКА И ПРИРОДЫ В ЛИТЕРАТУРНОЙ ШКОЛЕ РАСУЛА РЗА**

**Даянат Джуманов**
*Сумгаитский Государственный Университет, Сумгаит, Азербайджан*

**Резюме.** В статье отражены поиски человеко-центрированной поэзии о природе литературной школы Расула Рзы, имеющий философическо-интеллектуальную направленность. Исследование показывает, что в поэтических текстах на данную тему освещается проблема человека и его судьба, все внимание направляется на вопросы, волнующие людей.
**Ключевые слова:** Литературная школа Расула Рза, тема природы, контекст человека и природы, антропоцентризм, художественно-философическое понимание человека.

## 1. Giriş

Rəsul Rza ədəbi məktəbinin poeziya axtarışlarında insanın milli-xəlqi, ümumbəşəri və fərdi olmaqla üçplanlı təsviri-tərənnümü görünməkdədir və demək olar ki, insan konsepti bu üç istiqamətin qovuşuğunda insan-zaman/vaxt, insan-kainat/dünya, insan-təbiət/Allah, insan-omür/tale, insan-zəhmət/əmək paralelləri üzərində özünəməxsus poetik dərkini tapa bilmişdir. Məsələ orasındadır ki, bu mövzu və problematikada da "adilik - böyüklükdür" konteksi gözlənilir, insan və onun taleyi məsələsi birincidir, bütün əşya və hadisələrə, proseslərə yalnız insan bucağından yanaşılır. Bu insanmərkəzliliyi mövcud dövrün partiyalılıq, plançılıq, əmək qəhrəmanlılığı və s. kimi ideoloji sisteminə və bu yöndə yazılmış əsərlərə ədəbi etiraz, üsyan səsi kimi də qəbul etmək mümkündür. Rəsul Rzanın hələ 1954-cü ildə yazdığı "Təklif" şeirində özü haqqında *"Mən də adi insanam", "Nə başdan-başa tərif, nə də cılxa nöqsanam"* kimi insanlara etiraf-müraciəti şairin təbiətini açır, eyni zamanda insanı olduğu kimi görmək və qəbul etmək istəyindən irəli gəlirdi. Şairin "Mən torpağam" (1963) şeiri insan konsepsiyasının

üçplanlı təsvir-tərənnümünə və qeyd etdiyimiz mövzu paralellərinə bənzərsiz örnəkdir. Ədəbi mətn Orta əsrlər Azərbaycan-türk ədəbiyyatının əsas ədəbi cərəyanı olan sufizm-hürufizm fəlsəfəsinə yaxınlaşaraq İmadəddin Nəsiminin "Mənəm, mən" şeirinin poetik xələfinə çevrilmişdir: *Mən torpağam, məni atəş yandırmaz; /tərkibimdə kömürüm var, /külüm var. /Mən baharam çəmən-çəmən /Çiçəyim var, gülüm var. /Mən küləyəm, əsməsəm, /kim bilər ki, mən varam. /Mən buludam, səhraları susuz görüb, /ağlaram. /... Mən həyatam, /həmişə yoldayam; /nəfəsdəyəm, arzudayam, /baxışdayam, ürəkdəyəm, qoldayam* [7, s.28-29].

## 2. Təbiət mövzusunda yazılmış şeirlərdə insan və onun taleyindən nigaranlıq notları

Nəsiminin məşhur "Mənəm, mən" qəzəlini xatırladan "Mən insanam" motivinin dəfələrlə vurğulandığı "Mən torpağam" (1963) şeirində "*Mən insanam, /Vətənim var, elim var*", "*Ən böyük həqiqəti, /azadlığı, məhəbbəti, nifrəti /söyləməyə qadir olan /dilim var...*", "*Mən insanam, /daşıyıram qəlbimdə /dünyaların sevincini, qəmini*" və b. misralarında insan milli-xəlqi, ümumbəşəri və fərdi olaraq vəhdət tapmışdır. Yaradıcılığının I mərhələsində yazılan "Unutmayın" (1947) şeirində "*Aparın bir çayda basdırın məni*" vəsiyyətini edən şair hətta dəfn prosesinin "*Tabutuma ipək salmayın!*", "*Dəfnimə toplamayın izdihamı*" dərəcəsində adi keçirilməsini istəmiş, "Mən torpağam"da "sadə insan əlinin yaratdığı nemətlərlə" öyünmüşdür. "*Məni yatmağa qoymur, dünyanın dərdi, torpağın ağrısı*" – deyən lirik qəhrəmanını xarakterizə edən Xalq rəssamı S. Bəhlulzadə "İnsana məhəbbət poeziyası" məqaləsində yazırdı ki, *"Bu narahatlığın, bu dərin insani həyəcanın səbəbi odur ki, R. Rzanın lirik qəhrəmanı heç vaxt özünü böyük dünyadan ayırmır. O torpaqla, insanla vəhdətdir. Buna görə də onun özü barədə "Mən - torpağam, mən - küləyəm, buludam, işığam, baharam" deməsi tamamilə təbii və poetikdir... həyat baxışının, həyat fəlsəfəsinin ifadəsidir"* [4, s.73].

Şairin "Dəniz haqqında nəğmələr" (1959-1965) silsiləsinə daxil olan şeirlər və onların başlıca ideyası da insanla bağlıdır. "Dəniz, dalğalar və damlalar" (1959) şeirində damlanın dənizdən ayrı düşəndə buxarlanması, ayrı-ayrı damlaların dənizə bir rəng-ahəng verə bilməməsi kimi təbiətdə baş verən adi proseslər, bizə görə, əslində cəmiyyətdən ayrı düşən insanın mənən məhv olması, faydasızlaşması, məna gözəlliyini itirməsi anlamında dərk olunmalıdır. Ona görə də lirik qəhrəman düşünür ki, "sanki hər damla bir insandır" və bu mənada dəniz də "dalğalardan və damlalardan yaranmış bir cahan"dır. Şairin son şeirlərinin rəmzi, fəlsəfi mahiyyət daşıdığını qeyd edən akademik M. Cəfər belə qənaətə gəlmişdir ki, şair dənizi təsvir etsə də, *"... məqsəd insan həyatını göstərməkdir, cəmiyyət və şəxsiyyət arasındakı münasibəti aydınlaşdırmaqdır"* [2, s.90].

Təbiət hadisələrindən bəhs edən şeirlərində Rəsul Rzanın narahatlığı və nigaranlığı birmənalı şəkildə insanla bağlıdır: "Yağış" (1961) şeirinin lirik qəhrəmanı bir yanda səhər-axşam yağan yağış və digər tərəfdə isə sussuz səhraları - iki fərqli məkan və təbiət hadisəsini qarşılaşdırır, "*O yanda səhralar yanır, burda yağış heçə yağır*" şəklində təəssüflənir; "Nigaranlıq"da (1962) şəhərdə yağan yağış sularının dənizə tökülməsi müqabilində *"əkinləri qızdırmalı dodaqlar kimi cadar-cadar"* olmuş kəndi, *"bu ildəmi /traktorların sükanına,*

*/alaqların tikanına, /kətmənlərin sapına, /hədər yerə töküləcək /neçə insan alnından axan tər?!"*- deyə insanları düşünür; "Ulduz yolu və dolu"da (1962) leysan bağ-bağatı, taxılı, pambığı məhv edib insanların əziyyətini heç etdiyi üçün Aya, ulduza yol açmaq istəyən alimləri bu təbiət hadisələrini tənzimləmədiklərinə görə qınayır. Hətta maraqlıdır ki "Olum, ya ölüm" (1966) adlı Hamletin monoloqu ilə başlayan mətnin sonu da bü cür - "*Xəbəriniz varmı, dünən dolu vurub dağ ətəklərində əkini*" kimi nigaran notlarla bitir. Beş yüz ildən bircə yaz az yaşayan "müdrik bir təbiət və torpaq əxlaqı" (Y. Qarayev, Ş. Salmanov) qurumuş "Çinar ömrü" (1976-77) şeirindəki çinar da, həqiqətən, peyzaj elelmenti deyildir, *"Fırtınada, qasırğada /əyilmədi. /Acizlik, qorxu nədir- /bilmədi. /Yaşadı çinar kimi; budaqları çətir-çətir, /kölgəsi meydan-meydan*" kimi misralarda biz onun ömür yolunun məhz insana örnək olmasını görürük. *"Çinarın təmsil etdiyi ənəvi təbii gözəllik də fəlsəfi mahiyyət alır, ictimai gözəllik səviyyəsində ümumiləşir və ləyaqətlə yaşanan gərəkli ömür idealını əks etdirir... "Çinar ömrü" o mənada fəlsəfi-lirik şeirdir ki, onda şərti obraz vasitəsi ilə insan ömrünün mənası açılıb göstərilmişdir"* [6, s.16].

## 3. Rəsul Rza ədəbi məktəbində insan-təbiət, insan-zaman, insan-kainat və insan-ömür xətti

Araşdırma göstərir ki, Rəsul Rza ədəbi məktəbində təbiət və eləcə də müharibə, dünya, zaman və s. kimi digər mövzulara müraciət insanı təsvir-tərənnüm məqsədi daşımaqla yanaşı, onu müxtəlif aspektlərdən müşahidə etmək və öyrənmək baxımdan bir ədəbi vasitəyə çevrilmişdir. Arif Abdullazadənin "Bir günün ömrü" (1963), "Getdilər" (1964), "Mənim qazancım" (1965), "Maşın, zaman, insan" (1968), "İnsanlar düşünür" (1968), "Əsrin insanı üçün" (1968), "Layla" (1980), "Yaxşı, yaman insanlar" (1981), "Kəhrəba qumluqlar" (1983) və digər şeirlərində Rəsul Rza poeziyasından gələn bu lirik-fəlsəfi yön hiss olunmaqdadır. "Mənim qazancım" (1965) şeirində lirik qəhrəmanın daxili monoloqunun fəlsəfi çalarları "Mən torpağam"dan gəlir:

*Bütün insanlar kimi mən də*
*yanar bir ocağam -*
*içimdə odum da var, alovum da, kösöyüm də,*
*Mən bu tərkibimlə bir ömür, bir həyat,*
*bir gərdişəm,*
*və bundan belə çətin dəyişəm...* [7, s.28].

Yaxud şairin "Kəhrəba qumluqlar" (1983) şeirində qəfil bir dalğanın təsiri ilə dəniz ləpələrinin "sığalında nazlanan" narın qumluqların nizamının pozularaq məzara dönüşməsi, yavaş-yavaş əriməsi təsvir edilir və nəticədə, sahillərdə qalan kəhrəba qumluqlar zaman keçdikcə şair, rəssam, bəstəkar, ümumiyyətlə, insandan süzülüb qalanları xatırladır.

"Payız çağı" şeirində *"Bir süzgəcəm, əsrim süzülür məndən, süzülür söz-söz, misra-misra, şeir-şeir"* - deyən Ələkbər Salahzadənin şeirlərində insanın özünü təbiətin bir parçası

kimi hiss etmək və düşünməklə kainatın, təbiətin dərkinə can atması xüsusilə qabarıq görünür. Şairin "İnsanın yaşıl budağı" silsiləsindəki şeirlərin birində yağışdan sonra havanı qoxulayarkən onun "ləçək-ləçək", "çiçək-çiçək" olduğunu və ciyərlərinə çəkdikcə ruhuna çökdüyünü duyan lirik mən təbiətlə təmasdan "*səhər-səhər/bir çiçəkdən qalxıb uçan*" kəpənəyə çevrilmiş; "Mən də bu kürənin bir zərrəsiyəm" şeirində insan xüsusidən ümumiyə keçid almış, dünyanın ağrısını, uğurunu özündə - bir zərrədə daşımış və duymuş, eyni zamanda, "*Avropası Avropam, /Asiyası Asiyam, /Azərbaycan ürəyimlə bitişik yerdi!*" misralarında milliləşmiş, xəlqiləşmiş; "Monoloq"da "*Qollarımız /köksümüzdən fışqırdıqca /bu torpağı qucaqlayan /Qoşa qol şəlaləsi*" şəklində insan və təbiət obyektləri arasında bənzərliyin heç də təsadüfi olmadığına diqqət çəkilmiş, "Bir də gördün..." şeirində "*Bir də gördün oddu adam, /Bir də gördün ot oldu*" kimi misralarda od-ot müqayisələri ilə ömür məhdud zaman çərçivəsində fraqmentallaşmışdır. Ə. Salahzadənin "Yazqabağı" şeirində yazın insandan, insanın yazdan doğulması bu baxımdan uğurlu poetik örnəkdir:

*Baxışımdan yağış yağar,*
*tutub tellərindən dikələr otlar...*
*Yazqabağı*
*hərdən göz qapaqlarımı qaldırıb baxar*
*sonra da çəmənlərə,*
*meşələrə,*
*dağlara,*
*səmalara şığıyar*
*mənim köksümdən bahar!* [9, s.53]

Şairin bəşərin işığa olan zərurətinin insanın azadlıq və gələcək ehtiyacı kimi xarakterizə olunduğu "İşıq nağılı", "Cırtdan və yol əfsanəsi" (1970) kimi şeirlərində "İşıq insandır, insan işıqdır" ədəbi tezisi Günəş, Səhər, Prometey, Zərdüşt, Abşeron səhəri, İliç lampası, Cırtdan və başqa obrazlar vasitəsilə insan-zaman-məkan kontekstində özünə əbədi səfər qazanmışdır. *"Zaman və məkan sintezi bizə hər şeydən əvvəl ideya-fəlsəfi sintez və təmərküz üçün lazımdır"* [5, s.49] - fikrini vurğulayan akademik Y. Qarayev Ə. Salahzadənin bu şeirlərini uğurlu bədii ümumiləşdirmə mətnləri kimi qiymətləndirmişdir.

Əli Kərimin "Həmişə səfərdə" şeirində insan-zaman xətti "İnsan həmişə səfərdədir" ideyası ilə açılır. Şairə görə, qatarlar dayananda, təyyarələr enəndə, kitab oxuyanda, yaxud yatanda, məzarda olanda da insan səfərdədir. Lakin hamı yox, məhz *"Bir daşın üzərində /mənalı bir kitabı /varaqlayırsa əgər", "Yuxusu körpüdürsə /Günlə gün arasında", "Xatirəsi dostlara /Bir təpə aşmaq üçün /Qüvvə verirsə əgər"* tipində olan insanlar dünya kimi əbədi səfərdədir. Fikrət Qocanın "Qatar" şeirində adi bir qatarın timsalında insana məxsus ən ali məqamlara qovuşmaq yolu göstərilmiş və bu məsələlər*"Qaçır, /Uçur /Vaqon-vaqon /Ürək, /Arzu, /Ümid, /Nicat. /Qatara çat, /Qatarı qoyma qaçmağa"* ədəbi hökmü ilə həll edilmiş, rəmzləşmiş Zaman obrazında bədii-fəlsəfi baxımdan ümumiləşdirilmişdir.

Vaqif Səmədoğlunun "İri, mavi mamont idim" (1964) şeirində insan-zaman-məkan kontektsi ilk baxışdan ağlasığmazdır – *"O vaxt /sağ yox idi, /sol yox idi. /İşıqforlu yol yox idi. /Buz... /Dəniz... /Soyuq idi... /İri, /mavi mamont idim. /İndi... fortepiano müəllimiyəm"* şəklində buzlaşma dövründəki mavi mamontdan fortepiano müəlliminə qədər bir yol keçmişdir. "Bu bulud"da (1964) buludlar *"Bu bulud rəhmətlik nənəmə oxşayır", "O bulud qonşu küçədəki qarayanız suçuya"* kimi əlamətlərinə görə insanlara bənzədilmiş, "Bu gün"də (1967) insanın təbiətə vurduğu yaralar dilə gətirilmiş, lirik qəhrəman ölmüş bir qağayının başdaşına çevrilmək istəmişdir:

*Bu gün*
*ləpədöyəndə*
*qapqara mazuta bulaşmış*
*bir qağayının*
*meyiti üstündə*
*xaç kimi dayanmışam*
*Məzara da bənzəməyə başladım, ana...* [10, s.50]

Yaxud Vaqif Səmədoğlunun "Rekviyem" (1969) şeirinin lirik qəhrəmanı avqust ayında Şüvəlanda *"hasardan bir-iki metr aralı, /yarpaqları üç yoğun barmaq, /kölgəsi həmişə isti, /meyvələri sarı və dadlı, /əncir ağacı olmaq pis olmazdı..."* qərarına gəlir, hətta "*Serpuxovada dayanmayıb Moskvaya çatan qatarın səsi olmaq"* olmağı arzulayır və bu istək ağlagəlməz ştrix-çalarlara - yuxaya bükülmüş pendirlə göy soğanın, ağ şərabın dadına qədər gedib çıxır. "Darıxanda pis darıxıram" (1986) şeirində lirik mən izaholunmaz hisslər keçirir, "*İnsan ömrü deyilən şeyə heç bir dəxli yoxdur bu darıxmağın*" - deyə heç bir səbəb olmadan darıxır və qəribədir ki, bu cür darıxmaq hissi qızmar gün altında "*quduz olub öldürülmüş canavarın, itin ölümü*" ilə müqayisə edilir, onu yada salır.

Çingiz Əlioğlunun "Uçan işıq" (1972) şeirində yaxşı, yaman insanların hamısının "bir işığın düzümündə" yaşamasını düşünən lirik qəhrəman axıb gedən bir işığı müşahidə edərkən, onda özündən olan nişanələr görür, uçan işıqla birgə təbiətdən keçib süzülür, saflaşır:

*Ağacların şirəsində özümü axan gördüm.*
*Çiçəklərin gözüylə*
*aylara, ulduzlara*
*bolanıb baxan gördüm.*
*Uçan işıqla keçdim*
*Dünyanın daşından, dəmirindən,*
*Keçdim insanların taleyindən, ömründən* [3, s.10].

Ramiz Rövşənin "Dünya, məndən kimlər keçdi" (1987) şeirinin lirik qəhrəmanı isə *"Mən də keçdim yer üzündən, /elə bil ki bir iynənin /gözündən keçdim-getdim" şəklində* dünyadan keçməklə, həm də insanları *(Neçələri ayaq üstə /yuxlaya-yuxlaya keçdi, /-yuxusu qaldı canımda. /Neçələri asta-asta /ağlaya-ağlaya keçdi, /-göz yaşının duzu qaldı canımda*),

zaman, hadisə və obyektləri *(O gecələr, o küçələr /hamısı məndən keçdi, /-Gecələrin ulduzu, /küçələrin tozu qaldı canımda*) özündən keçirir. Zərrə olan insan "*Məni görüb yüyürdülər, /qalan qaldı, keçən keçdi"* misrasında dünyalaşır, eyni zamanda da, "*Mən də keçdim özümdən, /özümdən keçdim-getdim*" özündən süzülüb keçir, yola dönüşür. Şairin "Başı kəsik gözəl kötük" şeirində "Məndən sənə salam olsun, başı kəsik gözəl kötük", "Balam olsa, balan olsun, başı kəsik gözəl kötük!", "Əyilim köksünə başımı qoyum", "Gecələr laylamı çalasan" və s. kimi ifadələr də insan-təbiət yanaşması baxımından özünəməxsus görünür.

Fikrət Sadığın "İşığın yaşı" (1972) poemasında kainatın təməli, ilk daşı olan, "həmişəcavan", "həmişəqoca" işığın yaranma və yaşama prosesi insanla ilişgəli təsvir olunmuşdur, sanki günəş insanın dünyaya gələcəyini bilib, müxtəlif elementlərdə - kəhrəba, su, neft, qaz və kömürdə öz zərrəsini saxlamışdır. Odun Prometey yox, insan tərəfindən Yer kürəsinə gətirilməsi - yaradılması tezisi məqsədli şəkildə qabardılmış və bu fikri özündə vurğulayan "*İki yarımvəhşi insan /Vəhşi öküzə daş atdı-/İki çaxmaq daşının /Göydə toqquşmasından /Od çaxdı...*" misralar insan amilini dünyanın və poetik mətnin mərkəzinə gətirmişdir. Şairin "Daş-ağac-insan" (1977) şeirində insan-təbiət xətti daş və ağacdan sonra dünyaya gələn insanın özündə əvvəlkiləri də yaşatması, xasiyyətin daşdan, yaşamağın ağacdan keçməsi *"Sərtliyi, kövrəkliyi daşdan aldı, /Çiçəklənməyi, solmağı ağacdan", "Dözümü, vüqarı daşdan öyrəndi, /Göyərməyi, qocalmağı ağacdan", "Yalqızlığı, susmağı daşdandır, /Birləşməyi, danışmağı ağacdan"* kimi maraqlı bədii-fəlsəfi müqayisə-paralellər əsasında öz poetik ifadəsini tapmışdır. Daş həmişə insana lazım olmuşdur, insan əvvəl qayaya, mağaraya sığınmışdısa, sonra ondan ev tikmiş, ağac odun da olmuş, meyvəsi ilə də insanı yaşatmışdır. Bütövlükdə poetik mətndən belə bir nəticəyə gəlmək olar ki, insan nə qədər müasirləşsə, mədəniləşsə, texnologiyalaşsa da, mahiyyətcə yenə də təbiətdir - daş və ağacdır, zərrədə bütöv, bütövdə zərrədir:

*İnsan daşı yaşatdı,*
*Ağacı yaşatdı,*
*Daş da, ağac da insanı...*
*İndi bir ömürdə*
*Üç ömür yaşayır insan.*
*Daş ömrü,*
*Ağac ömrü,*
*Bir də öz ömrünü* [8, s.90].

Kainatın quruluşu haqqında yeni gümanlar kimi təqdim edilən "Ürək-saat-ağac" (1983-84) şeirində də bu model bir başqa cür öz davamını tapmışdır: Dəniz-dalğaların qalxıb-enməsi, Günəş, Ay, Ulduzların yanıb-sönməsi, bir sözlə, Yerdə olan açılıb-yumulmalar insan ürəyinin döyüntüsüdür və hər yerdə, hər şeydə - "bir qarış yerdə də, bir qurtum suda da, bir ovuc küldə də, bir zərrə odda da, bütöv bir ürək var". Ürək-saat-ağac forma və məzmununda mənalandırılan "kainatın kövrək çiçəyi - İnsan"dır.

**Nəticə.** Araşdırma göstərir ki, Rəsul Rza ədəbi məktəbində təbiət mövzusu insan və onun bədii-fəlsəfi dərki ilə sıx bağlı olmuşdur; insan özünü dünyanın, kainatın və təbiətin bir parçası kimi hiss etmiş, həm də düşünmüşdür. Poetik mətnlərin təhlilindən məlum olur ki, torpaq, dəniz, şəlalə, yaz, payız, yağış, külək, bulud, işıq, ağac, gül-çiçək və s. kimi obyektlər heç də peyzaj elementləri deyildir, onların estetik gözəlliyinin tərənnümünə hesablanmamışdır. Təbiət mövzusu insanın daxili dünyasının "kəşf edilməmiş" tərəflərini, ən dərin və intim hisslərini, insanı düşündürən və narahat edən problem sualları, ictimai mətləbləri sosrealizm dövrü ədəbiyyatında Azərbaycan poeziya məkanına "daşımaq" üçün həm də bir bədii fənd olmuşdur ki, bunu da mövcud ideoloji sistemə poetik etiraz kimi düşünürük.

## Ədəbiyyat

1. Abdullazadə A. (1991), Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 336.
2. Cəfər M. (2003), Seçilmiş əsərləri, 3 cilddə, III cild. Bakı, Çinar-Çap, 360.
3. Əlioğlu Ç. (1980), Ömür ağacı (Şeirlər). Bakı, Yazıçı, 141.
4. Hüseynov R., Şəmsizadə N. (1987), İki ömrün işığı. Bakı, Gənclik, 552.
5. Qarayev Y. (1985), Ədəbi üfüqlər. Bakı, Gənclik, 288.
6. Qarayev Y., Salmanov Ş. (1980), Poeziyada yaşanan həyat. Rza R. Seçilmiş əsərləri, 5 cilddə, I cild. Bakı, Yazıçı, 5-19.
7. Rza R. (2005), Seçilmiş əsərləri. 5 cilddə, I cild. Bakı, Öndər, 304.
8. Sadıq F. (1991), Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 384.
9. Salahzadə Ə. (1979), Gözlər baxır dünyaya (Şeirlər və poemalar). Bakı, Yazıçı, 135.
10. Səmədoğlu V. (2004), Uzaq yaşıl ada. Bakı, Şərq-Qərb, 264.